# KORPORATİV SOSİAL MƏSULİYYƏT ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ VƏ ONDAN İSTİFADƏ İMKANLARI




Avqust 2013

## Mündəricat

Xülasə ........................................................ 2
Ümumi İnformasiya ........................................................ 3
Avropada Korporativ Sosial Məsuliyyət ........................................................ 3
Müstəqil Dövlətlər Birliyində Korporativ Sosial Məsuliyyət ........................................................ 4
Azərbaycanda Korporativ Sosial Məsuliyyət ........................................................ 5
Nəticə və Təkliflər ........................................................ 5

## Xülasə


"İqtisadi və Sosial İnkişaf Mərkəzi"nin korporativ sosial məsuliyyətlə bağlı apardığı araşdırma əsasında əldə edilmiş nəticələr bu siyasət qeydində öz əksini tapmışdır. Qeyddə dünya ölkələri üzrə korporativ sosial məsuliyyət sahəsində nə dərəcədə uğurlu nailiyyətlər əldə olunması müzakirə olunur. Beynəlxalq təcrübədə dövlətlərin özəl sektorların korporativ fəaliyyətinə yaratdığı imkanlar, xüsusilə bu sahə ilə bağlı qanunvericilik bazasının yaradılması, şirkətlərin fəaliyyətinin qanunla tənzimlənməsi Avropa ölkələrində KSM sahəsində öz müsbət nəticələrini vermişdir.

Korporativ sosial fəaliyyətlə məşğul olunması ölkədə olan bir sıra sosial ekoloji problemlərə diqqətin ayrılması ilə onların öz həllini tapmasına kömək etməklə yanaşı cəmiyyətdə şirkətin imicinin də formalaşmasına və nüfuzunun artmasına səbəb olur. Post-kommunist ölkələrində isə korporativ sosial məsuliyyətlə bağlı o qədər də ürəkaçan nəticələr yoxdur. Belə ki keçmiş kommunist ölkələrində kollektiv sistemin yaranması, dövlətin özəl sektorun inkişafına yaratdığı maneələr, qoyduğu qadağalar korporativ sosial fəaliyyət sahəsində əhəmiyyətli nəticələrin əldə olunmamasına səbəb olmuşdur. Nümunələrdən də görüləcək ki, bu dövlətlərdə KSM-in inkişafı üçün əsas maneələrdən biri hüquqi bazanın olmamasıdır.

Almaniyada KSM-lə əlaqədar qanun olmasa da dövlət korporativ fəaliyyəti idarə etmək, tənzimləməkdən ötrü normativ aktlardan faydalanır. Əldə olunan nəticələrə əsasən Azərbaycanda da şirkətlərin korporativ fəaliyyətini idarə etmək, bu sahəyə olan marağı artırmaq məqsədilə qanunun qəbul olunmasına ehtiyac var. Lakin Milli Məclis bunun üçün xüsusi qanuna ehtiyac görmür və əgər bu sahəylə bağlı qanun qəbul olunarsa onun korporativ fəaliyyəti tam əhatə edə bilməyəcəyi bildirilir. Araşdırma nəticələrinə əsasən, Azərbaycanda da KSM sahəsində beynəlxalq təcrübəyə əsaslanaraq bir sıra mühüm addımların atılması təklif olunur. Bunlara hüquqi bazanın mövcudluğu,şirkətlərin sosial fəaliyyətlə bağlı hesabatı, özəl sektora dövlətin kəskin nəzarətinin azaldılması və s. daxildir.

## Ümumi İnformasiya

Dünya ölkələri üzrə korporativ sosial məsuliyyətə yanaşmalar müxtəlifdir. FilipKotler tərəfindən KSM-in bir 6 növü müəyyənləşdirilmişdir. Bunlara korporativ sosial marketinq, korporativ filantropiya, xeyriyyəçilik marketinqi, ərazi icmasının rifahı naminə könüllü görülmüş işlər, hər hansı sosial problemin qabardılması, biznesin idarə edilməsində sosial fəaliyyət yanaşmaları daxildir. Azərbaycanda xüsusilə son üç növün inkişaf səviyyəsi heç də ürəkaçan deyil. Vətəndaş cəmiyyətinin zəif inkişaf etdiyi ölkələrdə sosial problemin qabardılması çox vacibdir. Bu zaman biznes diqqətini əldə olan resurslar hesabına müəyyən bir sosial problemin həllinə yönəldir.

Dünya təcrübəsi göstərir ki, korporativ sosial məsuliyyətin inkişafını bir çox amillər nizamlayır. Bu amillər təkcə güclü korporasiyaların mövcudluğunu deyil, eləcə də düzgün qanunverici bazanın olmasını, ictimai fikrin və cəmiyyətin sosial məsuliyyətə hazırlığını tələb edir. 1920-ci illərdə ABŞ-da yaranmağa başlayan korporativ sosial məsuliyyət sonradan Avropada da geniş yayılmağa başlamışdır. Avropada korporativ sosial məsuliyyətin inkişafına sosial bazarın meydana gəlməsi və o cümlədən qloballaşma prosesləri öz müsbət təsirini göstərdi.

## Avropada Korporativ Sosial Məsuliyyət

Hal-hazırda dünyanın bir çox əhəmiyyətli şirkətlərinin nüfuzu onların korporativ sosial məsuliyyətə nə dərəcədə əməl etməsi ilə müəyyən olunur. Birləşmiş Krallıq, Fransa, Almaniya kimi dünya ölkələrində şirkətlər tərəfindən korporativ sosial məsuliyyətə üstünlük verilir. Korporativ sosial məsuliyyət üçün nəzərdə tutulmuş standartlar hər bir ölkənin qanunverici bazası, inkişaf səviyyəsi, cəmiyyətin münasibətinə görə fərqlənir Məsələn,**Amerikada** əmək münasibətləri fərdilik prinsipinə əsaslandığı halda**Avropada** kollektiv münasibətlərə əsaslanır. Amerikada xeyriyyə proqramları vasitəsilə həyata keçirilən sosial proqramlar, Avropada isə biznes layihələri və ünvanlı proqramlara üstünlük verilir.

20-ci əsr qərbi Avropada rifahın əsas təminatçısı dövlət idi. Şirkətlərin rolu isə yeni iş yerləri yaratmaq, müntəzəm olaraq vergiləri ödəmək, qanunlara əməl etməklə məhdudlaşırdı. Sonralar isə dövlət və özəl sektorun dövlətin rifahında rolu yenidən müəyyənləşdi və onlar arasındakı sərhədlər aradan qalxmağa başladı.

**Almaniyada** uzun müddətdən bəri geniş miqyasda istifadəolunmasına baxmayaraq korporativ sosial məsuliyyət anlayışı hələ də yad bir termin kimi qəbul olunur. Burada korporativ sosial məsuliyyətlə əlaqədar müzakirələr əsasən insan hüquqlarının mühafizəsi, ətraf mühitin problemləri vəanti-korrupsiya istiqamətindədir. Bu o deməkdir ki, şirkətin işi sadəcə onun daxili əlaqələri, təchizatı ilə məhdudlaşmır, böyük cəmiyyəti əhatə edir.

**Avstriyada** əmək və sosial məsələlərin həllində əməkdaşlığa xüsusi əhəmiyyət verilir. Həmçinin əmək və sosial müdafiə qanunla tənzimlənir. 1966-ci ildə qəbul olunmuş akt şirkətin təkcə sahibkarlara və işçilərə deyil, eyni zamanda ictimai maraqlara da xidmətinin vacibliyini vurğulayırdı.

Avstriya Dayanıqlıq Strategiyasını 2002-ci ildə qəbul etdi. Onun maraqları arasında regional hökumətlərə qədər irəliləmək nəzərdə tutulmuşdu.

**Mərkəzi və Şərqi Avropanın** post kommunist ölkələrində bazar iqtisadiyyatına keçidlə bağlı yaranan iqtisadi problemlərlə əlaqədar olaraq dövlətin sosial və ekoloji məsələlərə diqqəti azalsa da hal-hazirda KSM-ə uğurlu şəkildə əməl olunur.

## Müstəqil Dövlətlər Birliyində Korporativ Sosial Məsuliyyət

**Rusiya** nümunəsinə baxarkən qeyd etmək lazımdır ki, 90-cı illərdən etibarən iqtisadi siyasət radikal xarakter alır. Şirkətlərin maddi sıxıntıları onların sosial sahəyə maliyyə yardımı göstərməsinə mane olurdu. KSM ümumiyyətlə müzakirə mövzusu deyildi. Son illərə baxıldıqda isə başda metallurgiya və neft-qaz sənayesi olmaqla şirkətlərin KSM-ə marağı xeyli artıb. 2004-cü ildə hazırlanan "Rusiya biznesinin sosial xartiyası" bunun bariz nümunəsidir. Xartiya özündə sosial korporativ sektorun rolu missiyası və məqsədlərini əks etdirir. Korporativ sektorun prinsipləri sırasında məhsulun keyfiyyəti, müştəri ilə münasibətlər,insanhüquqları əsas yer tutur. Xartiyaya 2007-ci ildə 190-dan çox şirkətin qoşulması KSM-ə marağın nədərəcədə artdığını göstərdi.

**Ukraynada** KSM-lə əlaqədar xüsusi bir qanun yoxdur.Buna baxmayaraq KSM Strategiya Konsepsiya layihəsi hazırlanıb və Prezident Administrasiyasına göndərilib. Əgər layihə təsdiqlənərsə bu Ukraynada milli KSM konsepsiyasının inkişafına təkan verə bilər. Ukrayna cəmiyyətində şirkətin sosial məsuliyyəti əsasən xeyriyyəçilik tədbirləri kimi başa düşülür. Araşdırmalar göstərir ki, sosial məsuliyyətlə bağlı təsəvvürlər 2005-ci ildən bəri o qədər də dəyişməmişdir. Şirkətlər arasında sosial məsuliyyəti xeyriyyəçilik kimi başa düşənlərin sayı yüksək olaraq qalır. Ukrayna şirkətləri xeyriyyəçiliyi sosial məsuliyyətin bir aspekti hesab edir. 2005-2010-cu illər üzrə aparılan tədqiqatlar göstərir ki investisiya layihələri yalnız şirkətlərin üçdə biri tərəfindən həyata keçirilir. Bunlarım əksəriyyəti böyük şirkətlərdir və investisiya ayrılan sahələr içərisində təhsil və səhiyyə sahələri üstünlük təşkil edir. Ukraynada KSM-lərin həyata keçirilməsində meydana çıxan problemlərdən biri bu sahəyə nəzarət edən xüsusi dövlət orqanının olmamasıilə bağlıdır. Kiçikşirkətlərin KSM-lərin həyata keçirilməsində resurs yetərsizliyi ilə üzlə°məsi isə digər bir problemdir.

**Qazaxıstanda** korporativ sosial məsuliyyət anlayışı 2005-ci il prezident Nazarbayevin çıxışında öz əksini tapmışdır. Dövlət bizneslə əməkdaşlıq mexanizmləri və eyni zamanda KSM-lə bağlı hüquqi bazanın yaradılmasına səy göstərir. Həmçinin xeyriyyəçiliklə məşğul olan şirkətləri həvəsləndirmək üçün diplom və mükafatlar təyin edib.

## Azərbaycanda Korporativ Sosial Məsuliyyət

**Azərbaycan** nümunəsinə baxıldıqda 19-cu əsrin sonunda H.Z.Tağıyev,M. Nağıyev kimi neft maqnatları tərəfindən görülən xeyriyyəçilik tədbirlərini qeyd etmək lazımdır.Bu xeyriyyəçilik tədbirləri sosial məsələlərin həllinə yönəlmişdi:Təhsil sahəsinə, xüsusilə məktəblərin tikintisinə, o cümlədən azərbaycanlı gənclərinin təhsil almaq üçün Avropa universitetlərinə göndərilməsinə diqqət ayrılmışdır.

Post-kommunist ölkə olaraq Azərbaycanda korporativ sosial məsuliyyət ürəkaçan səviyyədə deyil. Sovetlər Birliyi dövründə özəl sektorun inkişafına olan maneələr öz neqativ nəticələrini verib. Hal-hazirda KSM-in güclü inkişafına mane olan səbəblər var. Həddən artıq bürokratiyanın, administrativ baryerlərin, inhisarçılığın mövcudluğu bu səbəblərə daxildir.

## Nəticə və Təkliflər

Şirkətlərin sosial məsuliyyətə marağının artırılması, eyni zamanda KSM ideyalarını ciddi qəbul etməsi üçün bir sıra qurumlar xüsusi qanuna ehtiyac olduğunu qeyd edir. Onlar şirkətlər qarşısında KSM-lə əlaqədar öhdəliklər qoyan qanunun qəbul olunmasını vacib hesab edir və bu sahədə QHT-lərin dəstəyini əsirgəməyəcəyini qeyd edir. Lakin Milli Məclis üzvləri qanunun qəbuluna ehtiyac görmürlər.

Kritiklər qanunun qəbul olunmasında bəzi problemləri qeyd edir. Belə ki, qanun korporativ fəaliyyəti bütünlüklə əhatə etmək imkanına malik deyil. Başqa bir problem isə iqtisadiyyatın yüklənməsi ilə bağlıdır. Məsələn Bulkeley hesab edir ki, Avstraliya Kyoto protokolunu imzaladığı təqdirdə digər İƏT ölkələrinə nisbətdə iqtisadi inkişafda geri qalacaq. 2008-ci ildə Danimarkada KSM-lə bağlı qanun qəbul olunub. Bu qanun 1100-dən çox şirkəti və investorları illik maliyyə hesabatlarına korporativ sosial məsuliyyətlə əlaqədar məlumat daxil etməyə məcbur edir. Bu məlumatlara şirkətin KSM siyasəti, onu necə həyata keçirilməsi, əldə olunan nəticələr və idarəetmənin bu sahədə gözləntiləri daxildir. Heç bir sosial məsuliyyət siyasətinə

sahib olmayan şirkətdə bu haqda hesabat verməlidir. Almaniyada KSM-ə dair xüsusi qanun olmasa da şirkətlərin fəaliyyətlərinə nəzarət etmək üçün normativ aktlardan və dolayısı yolla da olsa da bəzi qanunlardan istifadə olunur.

Azərbaycanda isə şirkətin KSM fəaliyyəti ilə əlaqədar verilən hər hansı bir məlumat reklam hesab olunur. Ölkədə korporativ sosial məsuliyyətin davamlı inkişafını təmin etmək üçün bir sıra təkliflər mövcuddur. Bunlara aşağıdakılar daxildir:

1. Stimullaşdırıcı tədbirlər, xüsusilə də dövlətin özəl sektorun sosial fəaliyyətinə dəstək göstərməsi lazımdır.

2. KSM sahəsində maarifləndirmə aparmaqla dünya təcrübəsində onun necə tətbiq olunması, əldə olunan nəticələr, şirkətlərə və dövlətə nə qədər əhəmiyyətli olmasının çatdırılmalıdır.

3. Dövlətin hər bir şirkət üçün korporativ idarəetmə standartlarının müəyyənləşdirilməsi yolu ilə şirkətlərin fəaliyyəti tənzimlənməlidir.

4. Korporativ sosial fəaliyyəti ciddiyyətini çardırmaq üçün bu sahədə qanun qəbul olunmalıdır.

5. Şirkətlər KSM fəaliyyətləri ilə bağlı hesabata cəlb olunmalıdır, bununla onlar sosial sahədə gördüyü işlərlə bağlı məlumat yaya bilərlər.

6. Hökumət və biznesin beynəlxalq çağırışlara cavab verməsi,və yadövlət və biznes münasibətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması lazımdır.

KONRAD-ADENAUER-STIFTUNG

Regional Program Political
Dialogue South Caucasus

Tel. +994 12 465 99 73
Fax +994 12 465 99 74

E-Mail: info.georgien@kas.de

Verbindungsbüro Baku
The Landmark Building III
Nizami Str. 90A
Republik Aserbaidschan

http://www.kas.de/suedkaukasus/